2017-ci ilin yanvar-noyabr aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 879800 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sənaye istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 45557,6 min manatlıq, qeyri-dövlət sektorunda 834242,4 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikanın sənaye müəssisələrində 16188 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 372,7 manat olmuşdur.